Öncə nazir ölkə Prezidenti cənab İlham Əliyevin “2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi barədə Sərəncam imzaladığını və bu sənədin xüsusi əhəmiyyət daşıdığını bildirib. Misir Mərdanov qeyd olunan proqramda nəzərdə tutulan məsələlər, ali təhsil sahəsi üzrə görüləcək işlər haqqında media nümayəndələrinə ətraflı məlumat verib.

Mətbuat konfransında 2008-2009-cu tədris ilinin yekunlarından söz açan nazir orta ümumtəhsil məktəblərində mərkəzləşdirilmiş buraxılış imtahanlarının keçirilməsi, yeni məktəb və əlavə korpusların tikintisi, ölkəmizdə fəaliyyət göstərən dövlət və özəl ali təhsil müəssisələri, burada təhsil alan tələbələrin sayı və digər mühüm istiqamətlər üzrə ümumi statistikanı iştirakçıların diqqətinə çatdırıb.

Sonda təhsil naziri Misir Mərdanov media nümayəndələrinin suallarını cavablandırıb.